## COĞRAFİ TƏHSİL

# AZƏRBAYCAN DİLİNDƏ YAZILMIŞ İLK COĞRAFİYA KİTABLARI: DƏRSLİKLƏRİN MƏZMUNUNUN TƏHLİLİ

**M.İ.Verdiyeva**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Bakı ş., Ü.Hacıbəyov küç., 68*

mirvari.verdiyeva@gmail.com

***Məqalənin tarixi:***

Daxil olub: 05 dekabr 2019
Təkrar işlənməyə göndərilib: 25 dekabr 2019
Çapa qəbul olunub 27 yanvar 2020

**Açar sözlər:**

ilk coğrafiya dərsliyi
dərslik siyasəti
dərsliyin məzmunu
Q.R.Mirzəzadə
illüstrativ materiallar
dərsliyin strukturu

**X ü l a s ə**

Azərbaycanda ana dilində nəşr edilmiş ilk coğrafiya kitabları və dərslikləri haqqında məlumat əldə etmək məqsədi ilə tədqiqatlar aparılmışdır. Tədqiqat 1900-1926-cı illəri əhatə etmişdir. Arxiv araşdırmaları nəticəsində o dövrdə nəşr edilmiş kitablar əldə edilərək surəti götürülmüşdür. Kitabın hər biri diqqətlə oxunaraq təhlil edilmişdir. İstifadə edilməsi və məzmun etibarı ilə coğrafiya kitabları dörd qrupa bölünmüşdür. Azərbaycan dilində çap edilmiş coğrafiya kitabları və dərsliklərinin Q.R.Mirzəzadədən əvvəl, onun dövründə və sonralar da yazılması qeyd edilmişdir. Nümunələr əsasında bəzilərinin məzmunu haqqında qısa təhlil verilmişdir. Əvvəllərdə yazılmış coğrafiya kitablarının tədqiqatdan kənarda qalmasının əsas səbəbi kimi ərəb və köhnə latın qrafikası ilə yazılması göstərilmişdir. Əvvəllər Azərbaycanca yazılmış coğrafiya kitablarında illüstrativ materiallar verilməmişdir. Yalnız ilk dəfə olaraq Q.R.Mirzəzadənin "Qafqazın coğrafiyası" kitabında rast gəlindiyi qeyd edilmişdir. Məqalənin sonunda tədqiqatın nəticələri konkret olaraq göstərilmişdir.

## 1. Giriş.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya təhsilinə inteqrasiya prosesi başlamış və çoxlu sayda islahatların aparılması həyata keçirilmişdi. Yeni-yeni sənədlər qəbul olunmuşdu. O cümlədən, dərsliklərin müasir tələblərə uyğun yenidən yazılması, müasir məzmuna malik olması tələbi qoyulmuşdu. 23 yanvar 2006-cı ildə "Ümumi təhsil sistemində dərslik siyasəti" sənədi qəbul edilmişdi. Sənəddə dərslik siyasətinin prinsipləri ilə yanaşı, dərsliklərin məzmununa verilən əsas tələblər də göstərilmişdi. Dərsliklərdə şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, Vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyaların olması, şagirdlərin yaş psixologiyası və fizioloji xüsusiyyətlərin nəzərə alınması və dünyəvilik prinsipinə riayət edilməsi əsas tələblərdəndir. [10] Nəticədə ümumtəhsil orta məktəbləri üçün yeni məzmunda, yeni struktura malik coğrafiya dərslikləri də yazılmağa başlandı. Yazılmış bu yeni dərsliklər əvvəlki mövcud olmuş dərsliklərin bazası üzərində formalaşdı. Bir növ elmi məzmun varislik prinsipini qoruyub saxlamış oldu.

Təhsil islahatlarının aparılması dərsliyin "coğrafiya" adlandırılması və mövzuların sadədən mürəkkəbə, asandan çətinə doğru verilməsini tələb etdiyindən, VI-XI siniflərdə verilmiş coğrafi bilik və bacarıqların coğrafiya elminin məzmun xətlərinə uyğunlaşdırıldı. Coğrafi məkan, bu məkanda baş verən təbii hadisələr və məskunlaşmış əhalinin-cəmiyyətin təsərrüfat fəaliyyətinə aid coğrafi bilik və bacarıqlar öz əksini tapmış oldu. Hal-hazırda Azərbaycanda coğrafi bilik və bacarıqların mənimsənilməsi üçün siniflər üzrə istifadə edilən dərslik "Coğrafiya" adı altında verilmişdir.

Tarixi dövrlərdə Azərbaycanda istifadə edilmiş coğrafiya dərslikləri ilə müasir dərsliklərin strukturu və məzmunundakı fərqləri müəyyən etmək üçün əldə edilmiş bəzi dərsliklərin tarixi ardıcıllıqla təhlilini vermək daha məqsədə müvafiqdir. Bu səbəbdən də, arxivdən əldə edilmiş bir sıra coğrafiya kitablarının məzmununun təhlilinin belə verilməsi ildən-ilə coğrafi məzmunda və strukturda baş vermiş dəyişikliyi görməyi asanlaşdırmış olar.

## 2.Təhlil və müzakirə.

Azərbaycanda coğrafiyaya aid elmi əsərlərdə ana dilində yazılmış ilk coğrafiya dərsliyi birmənalı olaraq Qafur Rəşad Mirzəzadənin adı ilə bağlıdır. Rəmzi Yüzbaşov "Məşhur coğrafiyaşünas Q.R.Mirzəzadə"adlı kitabında yazırdı: - "Qafur

Rəşad bizim mədəniyyət tariximizdə ana dilində ilk coğrafiya kitablarının banisi kimi tanınır" (Kitabın elmi redaktoru c.e.d., prof. Q.K.Güldür). [11, səh. 20, 32] Doğrudur, Q.R.Mirzəzadənin coğrafiya dərsliklərinin yazılmasında əvəzolunmaz dərəcədə böyük xidmətləri olmuşdur. 1910-1943-cü illər arasında Q.R.Mirzəzadənin V-IX siniflər üçün yazdığı 20-dən çox coğrafiya dərsliyi nəşr edilmişdir. Onlardan 14-ü dərslik, 3-ü metodik vəsaitdir. 1923-cü ildə çap edilmiş kitabı "Coğrafi terminlər lüğəti" və 1943-cü ildə isə "Meteorologiya elementləri" adlanır. 1932-ci ildə isə B.Əsgərovla birlikdə yazmış olduğu "Coğrafiyadan iş kitabı" 4-cü qrup üçün" 78 səhifədən ibarət metodik vəsaiti K.M.Q. Tədris Metod sektoru tərəfindən təsdiq edilərək nəşr olunmuşdur.

Tədqiqatın əsas məqsədi Q.R.Mirzəzadədən əvvəllər ana dilində yazılmış coğrafiya dərsliyinin olub-olmaması, nə kimi məzmun və struktur kəsb etməsi idi. Tədqiqat zamanı qismən axtarış, nəzəri təhlil və müqayisə metodlarından istifadə edilmişdir. İlk öncə Q.R.Mirzəzadənin coğrafiya kitabları əldə edilmişdi. Axtarış zamanı digər müəlliflər tərəfindən azərbaycan dilində yazılmış və müxtəlif illərdə çap edilmiş coğrafiya kitablarını da əldə etmək mümkün olmuşdur. Bu kitabların əksəriyyətinin surəti çıxarılmışdır və məzmunu təhlil edilmişdir. Coğrafiya kitablarının məzmunu və strukturu müqayisə edilmişdir.

Axtarışlar nəticəsində məlum olmuşdu ki, 1926-cı ilə qədər Azərbaycanda yazılmış və nəşr edilmiş kitab və dərsliklər birmənalı olaraq ərəb əlifbası ilə nəşr edilib. 26 fevral-6 mart 1926-cı il tarixində Bakıda I Beynəlxalq Türkoloji Qurultay çağrılıb və latın qrafikalı əlifbaya keçid haqqında qərar qəbul olunub. İyul 1928-ci ildə Azərbaycanda əlifba islahatı keçirilib, 1 yanvar 1929-cu ildən yeni Azərbaycan əlifbasına keçidlə bağlı hökumət qərarı rəsmən elan edilib və məktəblərdə tədris latın əlifbası ilə başlanıb. 11 iyul 1939-cu ildə latın əlifbası ləğv edilib və 1 yanvar 1940-cı ildə kiril (rus) qrafikalı Azərbaycan əlifbası tətbiq edilib. Müxtəlif dövrlərdə, müxtəlif əlifbalarla yazılmış elmi ədəbiyyatlar tədqiqatçıların elmi axtarışlarını çətinləşdirmişdi. Nəticədə lazım olan informasiyanı elmi kitabxanalardan və arxivlərdən almaq məsələsi problemə çevrilmişdir. Kitabların yazıldığı ərəb qrafikası müasir əlifbadan xeyli fərqlənir və köhnə fars qrafikası ilə qarışıq istifadə edilmişdir. Bu qarışıqlıq azərbaycan dilində o dövrlərdə istifadə edilən rus, türk, ərəb və fars sözləri ilə yanaşı, unudulmuş arxaiq sözlərlə müşayyət olunduğundan dərsliklərin məzmununun oxunmasında problem yaratmışdır.

Tədqiqat nəticəsində əldə edilmiş, müxtəlif dövrlərdə fərqli əlifba ilə yazılmış coğrafiya kitablarını təyinatı və məzmunu etibarı ilə dörd qrupa bölmək olar:

-müəllimlərin elmi-nəzəri biliyinin artırılması üçün yazılmış elmi ədəbiyyatlar;

-şagirdlərin coğrafi biliklərinin genişlənməsinə xidmət edən elmi ədəbiyyatlar;

-coğrafiya fənninin tədrisi üçün tərtib edilmiş coğrafiya dərslikləri;

-müəllim və şagirdlərin təlim prosesində istifadə edəcəkləri iş kitabları.

Müəllimlərin elmi-nəzəri biliyinin artırılması üçün nəzərdə tutularaq yazılmış elmi ədəbiyyatlar müxtəlif müəlliflər tərəfindən, müxtəlif məzmunda yazılmışdır. Bu kitablar kompleks bilik vermir, sadəcə müxtəlif mövzuya aid məzmuna və struktura malikdirlər. Bəzilərində məzmuna uyğun illüstrativ materiallar verilmişdir. 1924-cü ilə qədər yazılmış kitablarda elmi-coğrafi biliklərin mənbələri, hansı dildən tərcümə edilməsi, mündəricatı, neçənci siniflərə aid olması verilməmişdir. Əldə edilmiş elmi kitabların əksəriyyəti müxtəlif müəlliflər tərəfindən yazılmışdır və azərbaycan dilinə tərcümə edilərək müxtəlif şəhərlərdə çap olunmuşdur. Bəzi kitablarda tərcümə edənin və kitabın çapı üçün vəsaiti verənin kimliyi göstərilmişdir. 1900-1940-cı illər arası dövrlərdə coğrafi biliklərin elmi məzmununun ildən-ilə zənginləşməsinin, sistemləşməsinin, ardıcıllığın gözlənilməsinin və təkmilləşməsinin baş verməsi aydın hiss olunur. Deyilənləri müxtəlif müəlliflər tərəfindən müxtəlif illərdə tərtib edilmiş bəzi coğrafiya kitablarının məzmununun təhlili ilə vermək daha məqsədə müvafiq olar.

1989-cu ildə "Ziya" qəzetinin 27 dekabr 1879-cu il tarixli dördüncü nömrəsinin "Məmləkət əhvalatları" xəbər bölməsində kiçik bir məlumatda deyilir:-Darülfünunda rus təhsilindən qurtarmış və Gəncədə sledovatel olan Əsgər bəy Adıgözəlzadə bizim Azərbaycan dilində bir coğrafiya kitabını tərcümə və tərtibinə hümmət etmişdir." [12] Əsgər Ağa Adıgözəlzadənin-Goraninin hələ 1879-cu ildə Coğrafiya dərsliyi yazmış olduğu və "Ziya" mətbəəsində nəşr edilməsi haqqında məlumatı verilmişdir. Çox təəssüf ki, Ə.A.Adıgözəlzadənin bu coğrafiya dərsliyini hələki əldə etmək mümkün olmamışdır.

Şəmsəddin Saminin tərtib etdiyi "Qamusüləələm: tarix və coğrafiya lüğəti 6 cilddə İstanbulda, "Mehran" mətbəəsində nəşr edilmişdir (redaktoru Mehrandır) [9]. Mətn ərəb və köhnə latın qrafikası ilə yazılmışdır. Kitablar 1889-1898-ci ildə çap olub.

I cildin üzərində ərəb əlifbası ilə yanaşı fransızca “Tarix və coğrafiyanın universal lüğəti. Birinci cild” sözləri ilə yanaşı, müəllifin və mətbəənin adı yazılıb. Kitab redaktoru Mehranın “Sahib və tabe kitabın ifadəsi” adlanan ön sözlə başlayır. Ardınca “İfadə məramı” adı ilə “tarix zamandır, coğrafiya məkandır, zaman ilə məkanın bərabərinə münasibəti isə zahirdir” deyərək, insanların tarixi dövrlərdə yaşadıqları yerin necə olması, digər ərazilərdə hansı xalqların yaşaması barədə daima düşünmələri qeyd edilir. O cümlədən, qərbdə bu barədə çoxlu elmi kitabların yazıldığı diqqətə çatdırılır. Kitabların hamısında səhifələr iki sütundan ibarətdir və qara həriflərlə yazılmış sözlərin qarşısında mənasının izahı verilib. (Coğrafi adların-ərazi, ölkə, dağ, çay, şəxslər, ölçü vahidləri və s.) Fransızca olan sözlərin qarşısında mötərizədə latınca yazılışı verilib. Digər cildlərin hər biri eyni struktura malikdir. Bu kitabı bir növ terminlər lüğəti də adlandırmaq olar.

1904-cü ildə Həsən Nəsuhun yazmış olduğu Coğrafiya kitabının I cildi 372 səhifədən ibarət olub, “Tərcümə töhfə nəsuhiyyə” adlanır. Kitabın titul vərəqində ərəb dilindəki qeydlərdə deyilir:- “Yer kürəsinin hakimiyyəti şəraitində dünya ölkələrinin ümumi coğrafiyası.” Dövlət və səxavəti ilə məşhur cənab Hacı Zeynəlabdin Tağıyevin tamamilə müsəlmanların arasında intişar verilmək üçün Bakıda çap olunubdur. Müəllif Həsən Nəsuh. Sünni dairəsinin istifadəçiləri, müəllif hüquqları qorunur. Tərcümə edəni Məhəmməd Həsən Mövlazadə. Tiflis quberniyasının sədri Qoburniski, Tiflis və Kutaisi qazisinin icazəsi ilə. 21 may 1904-cü ildə Tiflis şəhərində senzuradan keçmişdir” [2].

Coğrafiya kitabının ilk səhifəsində naxışlı çərçivədə verilmiş ərəb dilində “Allahın xeyirli gözəl adları ilə” sözləri yazılmışdır və birbaşa yerin, onun üzərində olanların yaradılmasının geniş elmi izahı şərh edilmişdir (cəmi 22 səhifə). Bu hissədə insanların yer haqqındakı təsəvvürləri, dini kitablarda yer və onun üzərindəkilərin yaradılması barədə olan biliklər və insanların nəzəriyyələrindən bəhs edilir. Sonra gəmilər haqqında məlumat verilir və gəmilər təyinatına görə qruplara bölünür. “Suda istəamal olunan istilahələr” mövzusunda okeanlar da öz növbəsində 5 qrupa bölünür: -1.Məhyət kəbir (Sakit okean) Asiya ilə Ameriqa arasında, 2. Məhyət Atlantiq Amriqa, Afriqa, Avropa arasında, 3. Məhyət Hindi Afriqa ilə Asiya arasında, 4. Məhyət Məncəməd şimali (Şimal buzlu okean) Avropa, Asiya, Amriqa arasında, 5. Məhyət Mənciməd cənubi Afrika, Amriqa okyanusun cənubu [2, səh.10].

“Tərifi coğrafiyə” mövzusunda deyilir:-“Coğrafiya yunan sözüdür, bir elmdir ki, onda olunar ki, kürey ərzin vaqe olan iqlimlərin əhvalı, iqlimlərin ərz-tulu, şəhərlərin, dağların, səhraların, dəryaların, nəhrlərin, sakinə məmləkət-hökumətlərin ədədləri [2, səh. 12]. Bunun ardınca “Ərz”, “Su”, “Quru”ya aid mövzularda qısa məlumat verilib. Sonra hərəsi yarım səhifədən ibarət fəsillər ayrılır: I Fəsil:-“Əvvəlimci fəsil dünyanın sakinləri və növü bəşərin bəyanındadır”-adlanır. Dünya əhalisinin irqi tərkibini və zahiri fərqlərini izah edir. II Fəsil-“İkiminci fəsil lüğətlər bəyanındadır”-adlanır və dünya əhalisinin dil tərkibini izah edir. III Fəsil-“Üçümüncü fəsil dinlər bəyanındadir”- adlanır və dinlərin və hər birinin tərkibində olan növlərindən bəhs edir. IV Fəsil-“Dördümüncü fəsil hökumətlər bəyanındadır”-adlanır və hökumət-cümhuriyyət və s. sözlərin izahı verilir.

“Əqsəm dünya” mövzusu Avropanın sərhədlərini, sahil xətləri, əhalisi, təbiəti, dəryaları, sərvətləri, təqsim siyasiyə haqqında qısa məlumat verildikdən sonra, dünya ölkələri barədə elmi izahat şərh edilmişdir. Dünyanın ölkələri əsasən 3 qrupa bölünüb. “Avropanın böyük dövlətləri” (Britaniya ingilis, “İmperator Rusiya”, “Cümhuriyyəti Fransa”, “İmperator İlməniyə (Kermaniya)”, “Alman”, “İmperator Nemsə və Əlməcra (Avstra-Vinkiya)”, “Məmləkət İtaliya”, “Məmləkət Osmaniyyə (Türkiyə)”), İkinci təbəqənin dövlətləri (“Məmləkət İspaniya”, “Məmləkət Svid Norvic (Şvetsiyə Norvikiyə)”, “Məmləkət Rumanyə”, “Məmləkət Yunan”, “Asılı dövlətlər təbəqəsi”- “Məmləkət Serbiya”, “İmarət Cil İsud (Çornağoriya)”), Üçüncü təbəqə dövlətləri (“Məmləkət Danimarka Danya”, “Cümhuriyə Svisirə ilmata hədiyə (Şvedsariya)”, “Məmləkət Rumanyə”, “Məmləkət Yunan”, “Asılı dövlətlər təbəqəsi”- “Məmləkət Serbiya”, “İmarət Cil İsud (Çornağoriya)”).

“Kuçek və müstəqil hökumətlər” də öz növbəsində 3 qismə bölünür:- “Birinci qisim ölkələr” “Cümhuriyə San Madniyo”, “İmarət Monako”dur. “İkiminci qisim Asiya qitəsidir-Məmləkət dövlət müstəqlə:-Əvvəlminci təbəqə dövlətlər:-“İmperator Yapan (Yaponya) Japun” və “İmperator Çin Xəta (Kitay)” adlanır. “Üçüncü təbəqə ölkələr” kimi “Məmləkət Siam”, “Məmləkət Korya”, “Məmləkət Fars-İran (Pərsiya)”, “Məmləkət Əfğanıstan”, “Məqataə Sibirya”, “Türkistan Risiyə” və “Qafqasiya məmləkəti” (Qafqaz ölkəsinin paytaxtı kimi Tiflis şəhəri göstərilib).

“Müstəamərat Rusiyə dər Çin (Çində Rusiya kaloniyaları)”-bu mövzunun başlığı ərəb dilində yazılıb və kiçik mətndə deyilir:-Rusiya hökuməti 27 mart 1897-ci ildə Çin hökuməti ilə müqavilə bağlayıb ki, Talyn van adası sərhəddindən 99 il müddətinə bu yerləri icarə edib qalalar tərtib və Sibirya sərhəddinədək dəmir yolları bina edib. Rusiyanın əlində qalsın [2, səh. 349].

"Məmalük dövlət Osmaniyyə"-tərkibi-mövzusunda dövlətin sahəsi, əhalisi və təbiəti haqqında elmi məlumatlar yer alıb. Sonra Osmaniyyənin tərkibində olan ərazilərin adları və hər birinin sahəsi, sərhədləri, əhalisi və təbiəti haqqında izahat verilib:-"Qism əvvəl Türkiyə Asyə", "Armənyə Osmaniyə", "Kürdistan", "İraq ərəb ya Cəzirətul ərəb" və "Suriya (Şamat)".

"Qisim səni bələdi ərəb (İkinci hissə ərəb ölkələri)-Hüdudları" mövzusunda deyilir:-cənub qərb tərəfdə şimala və şərqə Sorsə (Suriya) İraq və Xəlic Fars, cənuba Bəhr Oman, qərbə Qırmızı dərya və Suviş qanalı [2, səh. 367]. Mətn ərazinin təsviri ilə tamamlanır.

Kitabın sonunda mündəricat verilmişdir, lakin istifadə edilmiş ədəbiyyat göstərilməmişdir. Dərsliyin mətnində azərbaycanca, türkcə terminlərlə yanaşı bəzi terminlərin ərəb dilində ifadəsi dilimizə tərcümə edilmədən verilmişdir.

1904-cü ildə Həsən Nəsuh tərəfindən yazılmış II cild "Coğrafiyayi-töhfeyi nəsuhiyyənin tərcüməsi" kitabı ərəb qrafikası ilə Axund Hacı Məhəmməd Həsən Mövlazadə tərəfindən tərcümə edilmişdir. Kitab 16 dekabr 1904-cü ildə Tiflisdə rəsmi senzuradan keçdikdən sonra, Tiflis quberniyasının sədri, məclis və qazisinin icazəsi ilə Bakı şəhərində, Hacı Zeynalabdin Tağıyevin vəsaiti əsasında, "Kaspiy" qəzetinin "Buxariyyə" mətbəəsində çap olunmuşdur və 218 səhifədən ibarətdir. Dərslik "Müqəddimə" ilə başlayır və burada əhalini cəhalətdən xilas etməyin yeganə yolunun təhsilli olması göstərilmişdir və mətnin hansı dildən tərcümə edilməsi naməlumdur. Dərslikdə "Asiyada olan qeyri-müstəqil məmləkətlər. Əvvəla müstəamərati ingilis" mövzusu ilə başlayır və Hindistan, Birma haqqında geniş məlumat verilir. Sonra yarım-mövzularla müxtəlif materiklərdə yerləşən ölkələr haqqında-təbiəti, sahəsi, əhalisi, təsərrüfatı və s. təsvir edilib. Ölkələrin-məmləkətlərin verilməsi pərakəndə halında olub, bəziləri haqqında geniş, bəziləri haqqında çox qısa məlumatlardan ibarətdir. 31 mövzunun olmasına baxmayaraq, heç birinə aid şəkil və ya xəritə-sxem yoxdur. Haqqında məlumat verilən ölkələr materiklərdə və ya adalarda yerləşir. Ölkələr arasında İngilis, İspaniya, Portuqaliya, Almaniya, Yaponiya və s. ölkələrin müstəmləkələri barədə də məlumat verilib. Məmləkət adları o dövrdə indikindən fərqli yazıldığından, bəzi ölkələrin müasir dövrdəki adları ilə üst-üstə düşmür. Məsələn, Cənubi Fənəzviyla, Səltənəti Zəncibar, Məmləkəti Nicra, Qismi Buluneziya və s. Dərslikdə mündəricat və ədəbiyyat siyahısı verilməmişdir. [3]

1908-ci ildə Gəncədə ruhani məktəbinin riyaziyyat və coğrafiya müəllimi Akif Səfvət "Tarixicahan, yaxud dünya nə olmuş, nə olacaq" adlı 80 səhifəlik coğrafiya dərsliyi yazmışdır. [8] Dərsliyin əvvəlində verilmiş "mündəricat"da 16 mövzu göstərilmişdir. Mövzular sütunvari deyil, ardıcıl olaraq, aralarında defis qoymaqla yazılmışdir və səhifələri göstərilməmişdir. Kitabın naşiri və mühərriri Akif Səfvətin "Ön sözdə"-"İfadə məramı" hissəsində, həyatın dərk edilməsində kitabın əhəmiyyətindən bəhs edən kiçik mətndə deyilir:-"Kitab elmin orağıdır". Mətnin sonunda "Gəncə məktəb ruhaniyyəsi, elim riyaziyyat və təbiyət müəllimi Akif Səfvət" sözləri yazılıb və kitabın 1908-ci il miladidə Gəncədə Haqverdiyevin şirkətində çap olunduğu göstərilib.

Mövzu göstərilmədən birbaşa yerin kürə şəklinə düşməsinin səbəbləri izah edilmişdir. Sonra "Bidəyəti xilqət", "Aləmi şəms", "Səma, yaxud fəza nədir", "Həkimayi və Mutəqdəmin Bitaxirinin səma haqqındakı nəzəriyyələri", "Aləmi ərz", "Dövrü qədim və ya ərzi nəbatət", "dövrü qədim və ya heyvanat", "Yerin dövrləri" və s. kimi mövzular yer almışdır. Mövzuların mətnində çoxsaylı ərəb sözlərindən də istifadə edilmişdir. Dərslikdə heç bir illüstrativ materiallar verilməmişdir. "Yerin dövrləri" mövzusunda:-Ərz (Yer) dövrləri verilmişdir və Yer qabığının əmələ gəlməsinin bir neçə dövrə bölündüyü qeyd edilərək, adları əvvəlcə fransızca, sonra isə ana dilində verilib. Birinci dövrdə ibtidai torpaqların, ikinci dövrdə silisiumlu torpaqların yaranması dövrü, devon dövrü, kömürün əmələ gəlməsi və perm dövrünün olması göstərilib. Mətnlərin əsasını geoloji biliklər təşkil edir. Mövzularda elmin mövhumatla qarışdırılmaması da oxucuların diqqətinə çatdırılır.

1910-cu ildə Q.R.Mirzəzadənin "Qafqazın coğrafiyası" kitabı Bakıda, Orucov qardaşları nəşriyyatında çap edilmişdi və 118 səhifədən ibarətdir [4]. Dərslik ərəb qrafikası ilə yazılmışdır, lakin neçənci sinif üçün nəzərdə tutulması qeyd edilməmişdir. Mətnlər çox qısa məlumatları əhatə edir. Elə mətnlər var ki, 2-3 cümlədən ibarətdir. Mətnlərin sonunda "sual və tapşırıqlar" bölməsi verilməmişdir. "Coğrafiyayi-töhfeyi nəsuhiyyənin tərcüməsi" coğrafiya kitabından fərqli olaraq, yalnız Böyük Qafqazın təbiətini əks edən bir qrafik təsvir və milli geyimdə olan 3 kişi şəkilləri (şəkillərin ikisi tək, birində isə 3 kişi təsviri var) verilmişdir. Şəkillərin ikisi "Əhalisi" mövzusunda verilmişdir və kimə məxsus olması məlum deyil. Şəkillərdən biri "Şeyx Şamil" mövzusunda verilmişdir və bununla da bu şəkildəkinin məhz Şeyx Şamil olmasını iddia etmək olar. Dərslikdə deyilir:

-Şeyx Şamil 1797-ci ildə təvəllüd etmişdir. Uşaqlıq zamanını özündən dörd yaş böyük olan qazi, molla ilə birlikdə keçirmişdir. Bunlar vəqtlərini

çox məhəbbət və mehriban keçirmişlər. Şeyx Şamil uşaqlıqdan rəfiqi Məhəmmədən dərs alırmış. Sonra tamam on dörd il Dağıstanın məşhur alimlərindən dərs oxumuşdur [4, səh. 31].

Dərslikdə Qafqaz haqqında qısa məlumat verilir:- sərhədləri, Qara dənizindən Xəzərə qədər uzunluğu (verstlə), əhalisi (qadın və kişilərin sayı), orta silsilədən və silsilə tərəfdən iki hissəyə bölünməsindən bəhs edilir. Şimali Qafqaz, Cənubi Qafqaz, Qafqaz tağları, C.Qafqazdakı tağlar, Suları, Nəhrləri, Gölləri, Havası, Maarif işi, Ziraət işi, Sənaye və ticarəti, Əhalisi, Qafqazdakı yollar, Məşhur şosse yolları, Voyenni-usətin yolu, Voyenni-Suxumi yolu, Məşhur "Suram" tuneli, Mədən suları yarım mövzularında qısa məlumatlar verilir. Mətnlər olduqca sadə dildə yazılmış elmi məlumatlardan, əsasən də nomenklaturadan ibarətdir. Dərsliyin sonunda çoxlu sayda cədvəllər verilmişdir ki, bu cədvəllər su və quru ticarət yollarını, məsafəsini və biletin qiymətini əks edir. Səh. 118-də Orucov qardaşları nəşriyyatının elanı verilib. Çapdan çıxıb satılan kitabların adlarının siyahısı və qiymətləri yazılıb. Bu siyahıda çoğrafiya kitablarının adı yoxdur.

1912-ci ildə 60 səhifəlik şəkilli, Rüşdü məktəbləri üçün nəzərdə tutulmuş "Coğrafiyyayi-riyazi, yaxud aləmi-şəms" adlı dərslik Kazanda, ərəb qrafikası ilə nəşr edilmişdir. Məhəmməd Rəfiqi tərəfindən yazılmışdır və "Bəradərən Kərimovlar" mətbəəsində çap olunmuşdur. Kitabın titul vərəqindəki qeyddə deyilir:- Məhəmməd Rəfiqi (Qarğalıda mədrase Osmaniyyədə adadi sinif müəllimi), birinci cüz (hissə) [7]. Dərslikdə 32 sxem, 1 şəkil (dənizdə sahilə yaxınlaşan gəminin müxtəlif məsafələrdə görünüşünün şəkli-yerin kürəvari olmasının sübutu kimi) verilmişdir. Mətn əsasən 8 mövzudan ibarətdir. Mövzular rum rəqəmləri ilə göstərilib və "Səma-gök yüzü", "Yerin hərəkəti", "Yerin üstündə nöqtə və dairələr", "Ərz tul", "Hərəkət zahiriyyə, hərəkət məhvəriyyə", "Yerin hərəkət məhvəriyyəsi-yuğariyyə (Təqvim, Fərc və Şəfəq)", "Kəvakib səyyarə", "Kəvakib səbtə tərix məcriyə qəməriyə. Təqvim qəməri. Xüsuf və Kusuf (Ay və günəş tutulması)" adlanır. Mövzularda üfiq, planet və ulduzlar, yerin hərəkətləri, meridianlar, paralellər, yerin kürə formasının sübutu, qütb dairələri, coğrafi enlik və uzunluq, onlara aid hesablamalar, fəsillərin, gecə və gündüzün əmələ gəlməsi, günəş və ay təqvimi, gün və ay tutulmaları və s. coğrafi məsələlərin elmi izahı verilmişdir.

1912-ci ildə Həsən bəy Məlikzadənin-Zərdabinin "Torpaq, su və hava" adlı coğrafiya kitabı Bakıda A.B.Aşurbəylinin "Kaspiy" mətbəəsində ərəb qrafikası ilə çap olunub. Kitabın üz qabığında "Kiyev islam tələbələri nəşriyyatı 4 ədəd" sözləri də qeyd edilmişdir. Dərslikdə mündəricat, illüstrativ materiallar verilməmişdir. İstifadə edilmiş elmi mənbə, hansı dildən tərcümə edilməsi göstərilməyib. Mətn "Torpaq, su və hava" mövzusu ilə başlayır:-Ülamə və hakimanələrə görə küreyi-ərz əmələ gələndən artıq istidən ərimiş şeylərdən mürəkkəbləşmiş...[6] yazılaraq, yer qabığının-torpağın əmələ gəlməsi izah edilmişdir. Quru və su olan ərazilərmateriklər və okeanlar haqqında ümumi məlumat verilərək, "Yerin içinin istisi", "Zəlzələ", "Yanar dağ" yarımmövzular olmaqla kitabın 36 səhifəsini əhatə etmişdir. 37-ci səhifədə "Su" mövzusunda suyun qaz tərkibi, təbiətdə rast gəlinən üç halı barədə məlumat verilib. Okean səviyyəsi, onun tərəddüdləri "Dərya səviyyəsinin qalxıb düşməsi" yarım mövzusunda izah edilir. Günəş və Ayın cazibəsi zamanı qabarma və çəkilmənin baş verməsinin izahı göstərilib. Küləklərin təsirindən cərəyanların əmələ gəlməsi öz əksini tapıb. Səhifə 62-də "Hava" mövzusu havanın qaz tərkibi haqqında məlumatla başlayır, havadakı su buxarının miqdarı, hava axınları, küləklər və s. barədə elmi izahat verilib. Kitabın sonuncu vərəqində mətbəəyə yardım edən Hacı Zeynalabdin Tağıyevə təşəkkür edilərək, bütün imkanlı şəxslərə müraciət edilir ki, kitabların çapı üçün vəsait ayırsınlar. Mətbəə nəfis şəkildə kitabların çapını həyata keçirir.

Dərsliyin məzmunu bəzi yerlərdə uzun-uzadı cümlələrdən ibarətdir. Oxuduqca cümlənin harada bitməsi aydın olmur, nöqtə, vergül çox yerdə qoyulmayıb. Əlbəttə bu çap səhvi ola bilər. Lakin bəzən hiss olunur ki, hərfi tərcümənin elmi izahında qüsurlar vardır, ancaq hansı mənbədən tərcümə edildiyi verilməmişdir.

Müəllifi göstərilməyən və 1914-cü ildə Kazan şəhərində "Millət" Elektro-Tipoqrafiyasında ərəb qrafikası ilə nəşr edilmiş coğrafiya dərsliyi 32 səhifədən ibarətdir. Sonunda mündəricatı yoxdur. Bəzi mətnlərə uyğun qrafik təsvirdən ibarət 24 təbiət və insan təsvirləri əlavə edilmişdir. Dərslik "Bissmilləhi-irrəhmani-irrahim" kəlməsi ilə başlayır. İlk öncə "Coğrafiyanın əhəmiyyəti" izah olunur:- "Kişi nə qədər uzaq yaşasa da, nə qədər bəy olsa da, onun bitər. Amma elmi coğrafiya bitməz." və Coğrafiya elminə belə bir tərif verilir:-"Üstündə durub yaşadığımız yeri bildirən elmə coğrafiya deyilir".-Ardınca coğrafiya elminin iki hissədən ibarət olması qeyd edilir: "Coğrafiya elmi iki cürdür:-Coğrafiya təbii:-Yer üzünün təbiətini, sularını və s. öyrədər. Coğrafiya politiki-siyasi:-Yer üzünün padşahlıqlarını, ordakı kişilərini, necə yaşadıqlarını söylər". [1] Dərslikdə qitələr fərqli sahəyə bölünmüşdür. Avropa, Asiya, Afrika (Ağ dəngiz, Şab dəngizi, Hind dəngizi, Atlas dağları çuğlamışdır), Misir (bura Afrikanın şimal hissəsinin daxil

olduğu bildirilir), Amerika, Avstraliya qitələrinə bölünmüşdür. Antarktika haqqında məlumat yazılmamışdır. Təbiətə aid ümumi məlumatın ardınca, qitələr üzrə ölkələr (padişahlıqlar) haqqında qısa və bəsit məlumatlar verilmişdir. Ölkələr sayına və bəziləri müasir adlarına görə fərqli şəkildə yazılmışdır, dərslik olduqca bəsit elmi məzmuna malikdir. Dərslikdə mündəricat yoxdur.

Q.R.Mirzəzadənin 1920-ci ildə ərəb qrafikası ilə nəşr olunmuş I hissə coğrafiya dərsliyi Azərnəşr tərəfindən çap edilmişdir və 190 səhifədən ibarətdir. Dərsliyinin titul vərəqində göstərildiyi kimi birinci dərəcənin 4-cü sinfinə məxsusdur. Dərslik "Diqqət" başlığı altında verilmiş oxuculara müraciətlə başlayır. Bu siyahıda 9 kitabın adı verilmişdir. Şərifovun "Cənubi Qafqazın coğrafiyası", Q.R.Mirzəzadənin II hissə coğrafiyası, Əli Nadirin "Heyvanlar aləmi" adlı coğrafiya, digərləri isə ədəbiyyat və fizikaya aid kitablardır. Kitabları Azərnəşrin göstərilən ünvandakı mağazalarından almağın mümkün olduğu diqqətə çatdırılıb.

Dərsliyin sonunda "fəhrisət"-mündəricat verilmişdir. Cəhət, Sıra dağlar, Yerin şəkli, Nəbatət, Bəzi hökumətlər, Coğrafiya hekayələri başlıqları altında 100 mövzu verilmişdir. Sonda "Yanlış doğru cədvəli" verilmişdir, 4 sütundan ibarət bu cədvəldə bəzi səhifələrdə gedən yanlış ifadələr və düzgün oxunuş qaydası göstərilmişdir.

Dərslikdə 111 şəkil və sxemlər mövzuların məzmununa müvafiq olub, əyaniliyi təmin edir. Şagirdlər öz diyarında rast gəlinməyən bitki və heyvanların, coğrafi obyektlərin və fərqli irqə mənsub insanların həyat tərzi ilə şəkillərin köməyi ilə tanış olurlar. Verilmiş 4 xəritə-sxem dəniz cərəyanlarını, istilik qurşaqlarını, passat küləklərinin axınlarını və ingilis müstəmləkələrini təsvir edir. Mövzuların mətinləri sadə dildə yazılmışdır və müxtəlif həcmdə verilmişdir. Bəziləri səhifənin yarısını tutduğu halda, bəziləri 2-3 cümlədən ibarətdir. "Bəzi hökumətlər" mövzusunda yarımbaşlıqlar şəklində Azərbaycan Cümhuriyyəti, Gürcüstan Cümhuriyyəti, Ermənistan Cümhuriyyəti, Rusiya Qoşma Şura Cümhuriyyəti, Buxara Şura Cümhuriyyəti, Xivə Şura Cümhuriyyəti, Türkiyə, İran, Əfqanıstan, Bəlucistan, Çin məmləkəti, Japoniya, İngilis, Fransa hökuməti, Almaniya, İtaliya haqqında qısa məlumatlar verilmişdir. Əsasən təbiəti və əhalinin məşğuliyyəti, idarə üsulu haqqında məlumatlardır. Məsələn, "Ermənistan Qafqaz cümhuriyyəti olmaqla yanaşı, Rusiya Qoşma Şura Cümhuriyyətinin tərkibinə daxildir"-kimi informasiyalar verilib [5, səh. 139].

"Coğrafi hekayələr"in hər biri "Hekayə-1", "Hekayə-2" və s. kimi verilməklə sıralanmışdır və 43 hekayədən ibarətdir. Hekayələrin məzmunu müxtəlif təbiət hadisələrinə, ölkələrə, materiklərə aiddir. Məsələn:-"Azərbaycanın xəritəsi", "Okyanus", "Xortum (tornado)", "Asiya", "Amriqa" kimi kiçik məzmunlu hekayələr vardır. Əslində bunlar hekayə deyil, sadəcə bəzi mövzuların izahından ibarətdir.

Dərslikdə hansı elmi ədəbiyyatdan istifadə olunması və ya hansı dildən tərcümə edilməsi verilməmişdir. Mövzuların sonunda sual və tapşırıqlar göstərilməmişdir.

**3. Nəticə**

1. Q.R.Mirzəzadəyə qədər bir sıra müəlliflər tərəfindən yazılmış coğrafiya kitablarının və dərsliklərinin bəziləri azərbaycanlı ziyalılar tərəfindən ana dilinə tərcümə edilmiş, bəziləri isə tərtib edilərək dərslik şəklində çap olunmuşdur.

2. Yuxarıda göstərilmiş coğrafiya kitablarının və dərsliklərinin heç birində neçənci sinif şagirdləri və ya müəllim üçün yazılması barədə məlumat verilməmişdir.

3. Ana dilində yazılmış ilk coğrafiya dərsliyinin Əsgər Ağa Adıgözəlzadəyə-Goraniyə məxsus olması "Ziya" qəzetində getmiş elanda göstərilmişdir.

4. Elmi kitabların və dərsliklərin məzmunu əvvəllər bəsit, əsasən nomenklaturadan ibarət və ticari xarakterli olsa da, sonralar tədricən elmi səviyyəsi yüksəlmişdir. Məzmunun keyfiyyətinin yüksəlməsi ölkələr və bölgələr arasında əlaqələrin genişlənməsindən, insanların coğrafi dünyagoruşünün artmasından və təhsilin səviyyəsinin elmi məzmun almasından irəli gəlmişdir.

5. Coğrafiya kitabı və dərsliklərinin elmi məzmunu və strukturu bir-brindən kəskin fərqliliyi ilə seçilir. Yerin böyük quru və su sahələrinin bölgüsü, dövlətlərin təsnifatı və adları müasir dövrdəkindən xeyli fərqli xarakterə malikdir.

6. Q.R.Mirzəzadədən əvvəl yazılmış coğrafiya kitablarında illüstrativ materiallar göstərilməmişdir. İllüstrativ materiallar ilk dəfə olaraq Q.R.Mirzəzadənin "Qafqazın coğrafiyası" dərsliyində (təbiət təsviri və kişi şəkilləri) verilmişdir. Sonrakı illərdəki dərsliklərində isə illüstrativ materialların sayı artmış və növ etibarı ilə qrafik təsvir, şəkil, sxem, xəritə-sxem, cədvəl və s. ibarət olmuşdur.

7. Müasir dövrdə bu dərsliklərin tədqiqatdan kənarda qalmasının yeganə səbəbi ərəb qrafikası ilə yazılması olmuşdur.

**ƏDƏBİYYAT**

1. Coğrafiya. Kazan, Elektro-Tipoqrafiya-"Millət", 1914, 32 s.

2. Həsən N., Tərcümə töhfə nəsuhiyyə, I cild, Bakı, "Birinci şirkət mətbəəsi", 1904, 372 s.

3. Həsən N., Coğrafiyayi-töhfeyi nəsuhiyyənin tərcüməsi, II cild, Bakı, "Buxariyyə", 1904, 218 s.

4. Mirzəzadə Q.R., Qafqazın coğrafiyası, Bakı, Orucov qardaşları nəşriyyatı, 1910, 118 səh.

5. Mirzəzadə Q.R., Coğrafiya, birinci dərəcənin 4-cü sinfinə məxsusdur, I qisim, Bakı, Azərnəşr, 1920, 190s.

6. Məlikzadə-Zərdabi H.B., Torpaq, su, hava, Bakı, "Kaspiy", 1912, 75 s.

7. Rəfiqi M., Coğrafiyyayi-riyazi, yaxud aləmi-şəms, Kazan, "Bəradəran Kərimovlar", 1912, 60 s.

8. Səfvət A., Tarixi-cahan, yaxud dünya nə olmuş, nə olacaq, Gəncə, 1908, 80s.

9. Şəmsəddin S., Qamusül-aləm. Tarix və coğrafiya lüğəti, 6 cilddə, İstanbul, Mehran nəşriyyatı, 1989-1898 illər.

10. "Ümumi təhsil sistemində dərsik siyasəti" Qanunu, Bakı, 23 yanvar 2006-cı il.

11. Yüzbaşov R., Məşhur coğrafiyaşünas Qafur Rəşad Mirzəzadə, Bakı, 1968, 31 s.

12. "Ziya" qəzeti, Bakı, 27 dekabr 1879, № 4, səh. 8.


## ПЕРВЫЕ ГЕОГРАФИЧЕСКИЕ КНИГИ, НАПИСАННЫЕ НА АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ: АНАЛИЗ СОДЕРЖАНИЯ УЧЕБНИКОВ

**М.И.Вердиева**

**Аннотация.** Были проведены исследования для получения информации о первых географических книгах и учебниках, изданных на родном языке в Азербайджане. Исследование охватило 1900-1926 года. В результате архивных исследований были найдены и скопированы книги, изданные в то время. С точки зрения использования и содержания книги по географии были поделены на четыре группы. Была отмечена публикация книг и учебников на азербайджанском языке до, во время и после Г.Р.Мирзазаде. Был приведен краткий анализ содержания некоторых образцов. Как причина почему ранее написанные географические книги были исключены из исследования было указано использование арабского и древне-латинского алфавитов. Книги по географии, написанные ранее в Азербайджане, не имели иллюстративных материалов. Было отмечено что первые иллюстративные материалы встречаются в книге Мирзазаде Г.Р. «География Кавказа». В конце статьи четко изложены результаты исследования.

**Ключевые слова:** первый учебник по географии, политика по учебникам, содержание учебника, Мирзазаде Г.Р., иллюстративные материалы, структура учебника.

## FIRST GEOGRAPHIC BOOKS WRITTEN IN THE AZERBAIJANI LANGUAGE: ANALYSIS OF THE TEXTBOOK CONTENT

**M.I.Verdiyeva**

**Abstract**. Studies were conducted to obtain information on the first geographical books and textbooks published in the native language in Azerbaijan. The study covered 1900-1926. As a result of archival research, books published at that time were found and copied. In terms of use and content, books on geography were divided into four groups. The publication of books and textbooks in the Azerbaijani language was noted before, during and after G.R. Mirzazade. A brief analysis of the content of some samples was given. As a reason why previously written geographic books were excluded from the study, was indicated the use of Arabic and ancient Latin alphabets. Books on geography, written earlier in Azerbaijan, did not have illustrative materials. It was noted that the first illustrative materials are found in the book of Mirzazade G.R. "Geography of the Caucasus." At the end of the article, the results of the study are clearly stated.

**Keywords:** the first textbook of geography, textbook policy, textbook's content, Mirzazade G.R., illustrative materials, textbook structure.